# Uğurlu islahatlar, yüksələn sosial rifah

**Daha bir uğurlu inkişaf ili arxada qalır. Yeni islahatlar mərhələsinin başlanğıcı kimi 2019-cu il tarixə çevrilir. Əldə edilmiş sosial və iqtisadi nəticələr göstərir ki, bu islahatlara alternativ yoxdur. Son illər ərzində müxtəlif mərhələlərdə aparılan islahatlar nəticəsində ölkəmiz inkişaf edib. Son 16 il ərzində iqtisadi baxımdan dünyada Azərbaycan qədər inkişaf edən ikinci ölkə olmamışdır. Ölkəmizdə çox böyük infrastruktur layihələri icra edilir, insanların rifah halı yaxşılaşır. Azərbaycan İlham Əliyevlə yeni davamlı uğurların və uzunömürlü xoşbəxt gələcəyin astanasındadır. Reallıq bundan ibarətdir ki, Azərbaycan həqiqətən zəngin bir ölkəyə çevrilmək mərhələsinə daxil olub. Yeni iqtisadi idarəetmənin və şəffaf iqtisadiyyatın qurulması Azərbaycanın yaxın illərdə yüksək inkişafa və keyfiyyətli həyat şəraitinə çatmasına imkan verəcəkdir.**

Dünya Bankının builki hesabatında da Azərbaycan ən islahatçı ölkə kimi mövqeyini möhkəmləndirdi. İqtisadiyyatın şaxələndirilməsi istiqamətində mühüm addımlar atıldı, uğurlu nəticələr əldə edildi. Enerji sektorundan asılılıq minimuma endirildi. Qeyri-neft sektorunun inkişafını regionların inkişafı kimi dəyərləndirən dövlətimizin başçısı İlham Əliyevin cari ildə də hər bir bölgəyə səfəri mühüm sosial obyektlərin açılışı və təməlqoyma mərasimlərinin keçirilməsi, səfərdən sonra həmin rayonun sosial-iqtisadi inkişafının sürətləndirilməsi məqsədilə Tədbirlər Planının təsdiqlənməsi, Prezidentin Ehtiyat Fondundan əlavə vəsaitlərin ayrılması ilə yadda qalacaq. 2019-cu ildə iqtisadi göstəricilərimiz çox müsbətdir deyən möhtərəm Prezidentimiz qeyd edib ki, düzgün iqtisadi siyasət aparmaqla biz əlavə gəlirlər əldə etdik. Bu gəlirləri, ilk növbədə, sosial problemlərin həllinə yönəltdik. Bu il 4 milyon 200 mindən çox Azərbaycan vətəndaşı - əhalinin təxminən 40 faizdən çoxu böyük sosial paketlə əhatə olunub. Maaşlar, pensiyalar, müavinətlər, tələbə təqaüdləri, problemli kreditlərin həll edilməsi - bütün bunlar böyük vəsait tələb edir. Biz bu işlərə milyardlarla manat vəsait yönəltmişik və çox düzgün addım atmışıq. Çünki bu, lazım idi. Sosial təminat bizim üçün ən başlıca vəzifədir. Buna nail olmaq üçün bizim iqtisadi imkanlarımız olmalıdır. Ona görə iqtisadi inkişaf nə qədər yüksək templərlə artsa, sosial təminat da bir o qədər yaxşılaşacaq, maaşlar, pensiyalar artacaq. Ona görə bu gün ölkəmizdə aparılan islahatlar bu məqsədi güdür. İlk növbədə, sosial sahədə daha böyük nailiyyətlərə nail olmaq üçün biz iqtisadi sahədə düzgün prinsiplər əsasında işimizi qurmalıyıq. Şəffaflıq, dürüstlük, korrupsiya və rüşvətxorluqla mübarizə, iqtisadi islahatlar, struktur islahatları - bütün bunlar ölkəmizə böyük canlanma gətirir.

Son illər ərzində şəhid ailələrinə və Qarabağ müharibəsi əlillərinə 7500-dən çox mənzil və fərdi ev, 7 minə yaxın minik avtomaşını verilib. Bu, deyə bilərəm ki, çox nadir hallarda dünya miqyasında baş verir. Hesab edirəm ki, Azərbaycan bu sahədə ən düzgün siyasət aparır. Çünki bu siyasətin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Xüsusilə o vətəndaşlar ki, öz həyatını Vətən uğrunda qurban vermişdir və sağlamlığını itirmişdir. Bundan sonra da bu siyasət davam etdiriləcək. Gələn il ən azı 1500 mənzil və fərdi evin verilməsi nəzərdə tutulur, yəni, bu ildən fərqli olaraq iki dəfə çox. Baxmayaraq ki, bu ilin əvvəlində 800-ə yaxın mənzilin verilməsi nəzərdə tutulurdu. Ancaq əlavə vəsaitin ayrılması nəticəsində bu mənzillərin və evlərin sayı 900-ə çatıbdır, o cümlədən yüzlərlə minik avtomobili də verilib.

Azərbaycan dövləti sosial təminat sahəsində çox genişmiqyaslı və düzgün siyasət aparır. İlk növbədə, şəhid ailələri, Qarabağ müharibəsi əlilləri və veteranları dövlət tərəfindən qayğı ilə, diqqətlə əhatə olunurlar. Eyni zamanda, işğaldan əziyyət çəkən soydaşlarımız, məcburi köçkünlər üçün bu il 5 min mənzil və fərdi ev təqdim olunub. Beləliklə, bu kateqoriyadan olan vətəndaşlara bu il təqribən 6 minə yaxın ev və mənzil verilib. Bu, o deməkdir ki, biz bir şəhər boyda evlər tikmişik və layiq olan vətəndaşlara təqdim etmişik. Mən ikinci ölkə tanımıram ki, bu sahəyə bu qədər diqqət ayrılsın. Bu, bir daha göstərir ki, bizim bu sahədəki siyasətimiz həm düzgündür, həm ədalətlidir. Bu siyasət davam etdiriləcək. Çünki hələ də növbədə dayanan vətəndaşlar var. Şəhid ailələri arasında təqribən 2 mindən çox vətəndaş növbədə dayanır. Onların da problemləri yaxın 2-3 ildə həllini tapacaqdır.

Cənab İlham Əliyevin hər bir insanın rifah halını yaxşılaşdıran layihələr həyata keçirməsi, hüququn aliliyinin təmin edilməsi, qeyri-hökumət təşkilatlarının sərbəst fəaliyyətinin təmini, demokratik qaydaların cəmiyyətin həyatına sıx daxil olması, idarəetmədə şəffaflığın daim inkişaf etdirilməsi, insan haqlarının təmini, cəmiyyətdə tolerantlığın, multikulturalizmin bərqərar olması və digər yeniliklərdə özünü əyani surətdə təsdiqləməkdədir. Bu proses getdikcə daha geniş vüsət alır və sosial-mədəni transformasiyalar dövlətçiliyin güclənməsinə geniş imkanlar açır. Azərbaycan xalqının Prezident İlham Əliyevə məhəbbətinin, inamının əsasında dövlətimizin başçısının liderlik keyfiyyətləri dayanır. "Mən bütün Azərbaycan xalqının, hər bir Azərbaycan vətəndaşının Prezidentiyəm. Mənim borcumdur ki, imkan daxilində hər bir vətəndaş inkişafa, yaxşılığa doğru irəliləyişi görsün və onu hiss eləsin" deyən möhtərəm Prezidentimizi xalqa sevdirən ən mühüm xüsusiyyəti əsl dövlət başçısına xas qətiyyət, atdığı hər bir addımda milli maraqları öndə tutmasıdır.

Prezident İlham Əliyevin verdiyi hər bir qərar Azərbaycan dövlətinin milli maraqlarına hesablanır. Xalqa xidmət etmək, hər bir azərbaycanlının Prezidenti olmaq onun həyat fəlsəfəsidir. Bu gün ölkədə həyata keçirilən sosial-iqtisadi siyasət nəticəsində qeyri-neft sektorunun yüksəlişi daha çox diqqəti cəlb edir, çoxşaxəli iqtisadiyyatın inkişafı təmin olunur. Prezident İlham Əliyev Azərbaycana rəhbərlik etdiyi dövrdə ölkəmiz dinamik inkişaf yolu keçib, iqtisadiyyatımız sürətlə inkişaf edib, bu illər ərzində beynəlxalq səviyyədə dünyanın iqtisadi cəhətdən ən sürətlə inkişaf edən dövləti imicini qazanıb. Ölkəmizin beynəlxalq aləmdə nüfuzunun artması, mövqelərinin güclənməsi, qlobal beynəlxalq layihələrdə Azərbaycanın həlledici iştirakçı kimi çıxış etməsi, xalqın maraqlarını təmin edən siyasi fəaliyyətində göstərdiyi iradə və qətiyyət vətəndaşların Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətə münasibətini formalaşdırıb. Bu münasibət xalqın sabitliyə, təhlükəsizliyə, inkişafa, tərəqqiyə inamını ifadə edir. Xalq-iqtidar birliyi, məqsədyönlü siyasətimiz bu gün Azərbaycanı qüdrətli dövlətə çevirmişdir. Ölkəmizin beynəlxalq nüfuzu artır, dünya miqyasında layiqli yer tutur, Azərbaycan dünyada çox böyük hörmətə, rəğbətə, dəstəyə malik olan bir ölkədir. Etibarlı tərəfdaş imici qazanmış, beynəlxalq aləmdə öz mövqelərimiz böyük dərəcədə güclənmişdir.



**Səmiyar ABDULLAYEV,**
**Azərbaycan Gözdən Əlillər Cəmiyyətinin sədri.**

Prezident İlham Əliyev tərəfindən həyata keçirilən islahatlar ölkəmizin dinamik inkişafının gətirdiyi yeni keyfiyyət mərhələsində baş tutur. İslahatların ən ümdə vəzifələrindən biri də əhalinin rifah halının daha da yaxşılaşdırılması, yeni iş yerlərinin açılması, işsizliyin səviyyəsinin daha da aşağı səviyyəyə salınması, sosial islahatların daha da dərinləşməsi məqsədini daşıyır. Bütün bunlar Azərbaycan Prezidentinin həyata keçirdiyi kadr siyasətinin də, islahatlarının da əsasında Azərbaycan xalqının rifahının və ölkəmizin inkişafının təmin olunması məqsədlərinin dayanmasını göstərir. Bu amil xüsusən sosial sahədə, əhalinin həssas qruplarına münasibətdə, onların rifahının yaxşılaşdırılmasında aydın nəzərə çarpır. 40 minə yaxın görmə qabiliyyəti məhdud vətəndaşlarımıza göstərilən diqqət və qayğının yüksəlməsində də hiss olunur. Xüsusən, Birinci vitse- prezident Mehriban Əliyevanın əvəzsiz xidmətlərini minnətdarlıqla qeyd etmək lazımdır. Məhz onun təşəbbüsü və bilavasitə dəstəyi ilə gözdən əlillərin İKT ilə təminatı sahəsində bir sıra geniş layihələr həyata keçirilir. Respublikamızın müxtəlif bölgələrində, Bakıda, Gəncədə, Naxçıvanda, Yevlaxda gözdən əlillər üçün İnformasiya Resurs Tədris mərkəzləri tikilib istifadəyə verilib. Digər bölgələrdə də belə müəssisələrin gözdən əlillərin ixtiyarına verilməsi davam etdirilir. Fondun dəstəyi ilə gözdən əlillərin internat evləri, onlar üçün nəzərdə tutulan məktəbləri təmir olunub, müasir avadanlıqlarla təchiz edilib. Regional mərkəzlərin cənub bölgəsində açılması nəzərdə tutulub. Qeyd edək ki, əlillərin reabilitasiyası, onların sosial müdafiəsinin gücləndirilməsinə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin yeni rəhbərliyi tərəfindən ardıcıl tədbirlər həyata keçirilir. Ölkədə fəaliyyət göstərən özəl sektorda əlillərin əməyindən istifadəyə, xüsusən informasiya texnologiyaları sahəsində gözdən əlillərdən işləmək istəyənlərə yaradılan imkanların daha artırılmasına ehtiyac var. İdman sahəsində də əlillər çox böyük nailiyyətlər qazanırlar. Paralimpiyaçılarımız ölkəmizə yüksək mükafatlar, medallar gətirir. Dövlət bayrağımızı yüksəldirlər. Onların arasında gözdən əlillər də var. Ölkə başçısı tərəfindən əlil idmançılarımız müxtəlif dövlət mükafatları - orden və medallarla təltif olunublar. Bu gün gözdən əlillər üçün kitabxana fəaliyyət göstərir və kitabxana elektron sisteminə qoşulub. Görmə imkanları məhdud şəxslər üçün bədii və cizgi filmlərinin lifloşərhlə təqdim olunması işləri aparılır. Brayl üsulla kitabların, informasiya resurslarının hazırlanması da diqqət mərkəzindədir. Yaxın vaxtlarda Brayl üsulla kitab çapı üçün mətbəə yaradılmışdır. Gözdən əlillərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması da diqqət mərkəzindədir. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin sifarişi ilə Bakıda gözdən əlillər üçün 132 mənzilli bina tikilib istifadəyə verilib. Onu da qeyd edim ki, bundan əvvəl də 90 mənzilli bina gözdən əlillərə təqdim olunmuşdur. İnanırıq ki, ölkəmizdə əlillərə, o cümlədən görmə qüsurlu vətəndaşlara göstərilən diqqət və qayğı bundan sonra da artacaq, onların problemlərinə, mənzil-məişət şəraitlərinin yaxşılaşdırılması istiqamətində qarşıya qoyulan proqramlar həyata keçiriləcək. Gözdən əlillərin sosial rifahı daha da yaxşılaşacaqdır.

Ötən ilin iqtisadi göstəricilərinin təhlili bu qənaətə gəlməyə əsas verir ki, ulu öndər Heydər Əliyev siyasi kursunun davam etdirilməsi Azərbaycanda ictimai zərurətə çevrilmişdir. Bu kursu layiqincə davam etdirən dövlət başçısı cənab İlham Əliyev hər addımında milli maraq və mənafeləri uca tutur, ölkə vətəndaşlarının arzu və istəyini gerçəkləşdirmək üçün böyük əzmkarlıqla çalışır. Azərbaycan Prezidentinin fəaliyyətinin əsas qayəsi də xalqa və dövlətə sədaqətli, layiqli xidmət prinsipi üzərində qurulmuşdur. Əminliklə demək olar ki, Azərbaycan xalqını uğurlu gələcəyə aparan bu siyasət növbəti illərdə də davam etdiriləcək, respublikamız cənab İlham Əliyevin rəhbərliyi altında inkişaf tempini sürətləndirəcək, qabaqcıl dövlətlər arasında layiqli yerini tutacaqdır. ■